# Azərbaycan və Çin "yaşıl enerji" sahəsində əməkdaşlığı genişləndirir

**Azərbaycan-Çin iqtisadi münasibətləri iki ölkə arasında fəal siyasi dialoq və davamlı diplomatik təmasların fonunda uğurla inkişaf edir. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri bir daha təsdiqlədi ki, dövlət başçılarının iradələri sayəsində müxtəlif sahələri əhatə edən çoxşaxəli və məqsədyönlü fəaliyyətin daha da dərinləşməsinə yeni stimul verilir.**



Azərbaycanla Çin arasında iqtisadi əməkdaşlıq nəqliyyat-logistika, infrastruktur, sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalar və innovasiyalar və digər sahələrdə inkişaf etməkdədir.

Çin şirkətləri həmçinin ölkəmizin neft-qaz sənayesinə böyük maraq göstərirlər. 2018-ci ildə SOCAR və CNPC neft şirkətinin törəməsi olan "BGP.Inc" birgə müəssisənin yaradılması haqqında təsis müqaviləsi imzalayıblar. "BGP.Inc"nin əsas fəaliyyət sahələrinə quruda, keçid zonasında və dənizdə kəşfiyyat işlərinin aparılması, o cümlədən mürəkkəb əməliyyatlar aparmaqla seysmik məlumatların əldə edilməsi, emalı, İKT texnologiyalarının xidmətinin göstərilməsi və seysmik avadanlıqların istehsalı daxildir.

Azərbaycan-Çin iqtisadi əlaqələrindən bəhs edərkən Prezident İlham Əliyevin cari il yanvarın 20-də Davosda Çinin CGTN telekanalına müsahibəsi də yada düşür. Həmin müsahibədə vurğulanıb ki, bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 qiqavat həcmində günəş və külək-elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 qiqavatdır. Ölkəmiz bu layihələri bir sıra xarici tərəfdaşları ilə həyata keçirir. Konkret olaraq Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP şirkətləri və digər şirkətlərlə. Prezidentimiz sözügedən müsahibəsində qeyd etmişdir ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər, eləcə də Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər: "Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir".

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkəmizin Energetika Nazirliyi ilə Çin şirkətləri arasında bir sıra sənədlər imzalanıb ki, bunlar da əsasən bərpaolunan enerji sahəsində əməkdaşlığın genişlənməsinə xidmət edir.

İmzalanmış sənədlər sırasında "Azərbaycan Respublikasının Hökuməti və "Universal Solar Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında 100 MVt gücündə Qobustan Günəş-Elektrik Stansiyası Layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycan Respublikasında dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi" yer alıb. İmzalanmış digər sənədlərə əsasən, "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə əməkdaşlıqda bir sıra önəmli layihələr icra ediləcək. Bunlar "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən Günəş-Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi, "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 160 MVt gücündə Günəş-Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi (mübadilə ediləcək)" "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti, "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu"dur.

Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında "Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu" da özündə iki ölkə arasında energetika sahəsində əməkdaşlığın inkişafını ehtiva edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 24 aprel (№ 81).- S.8.